# SEÇİCİNİN YADDAŞ KİTABÇASI

2013-cü il 27 oktyabr Gürcüstanda Prezident seçkiləri keçirilir

Seçki məntəqəsinə gələrkən üzərinizdə Gürcüstan vətəndaşlığını təsdiq edən vəsiqə və ya ID vərəqəsini və yaxud Gürcüstan vətəndaşının pasportunu (məcburi köçürülmüş şəxsin halında, həmçinin qaçqınlıq vəsiqəsini) götürün, yox əgər Avrop İttifaqının üzvü olan dövlətin vətəndaşısınızsa, Avropa İttifaqının üzvü olan dövlətin vətəndaşlıq pasportu üstünüzdə olsun.

Səs vermək üçün zəruri prosedurlar:

- Axını tənzimləyənin yanında markirovkanın yoxlanılması prosedurundan keçin.

Diqqət!
Markirovka olunduğunuz aşkarlandığı təqdirdə, sizə seçki binasına daxil olmaq və seçkilərdə iştirak etmək hüququ verilməyəcəkdir.

- Qeydiyyatçının yanında markirovka prosedurundan keçin.

Diqqət!
Markirovkadan imtina etdiyiniz halda, seçkilərdə iştirak edə bilməyəcəksiniz.

- Seçicilər siyahısında soyadınızın qarşısında imzanızı atmaqla bülleteni qəbul etdiyinizi təsdiq edin.
- Qeydiyyatçı tərəfindən imzalanmış və qeydiyyatçı möhürü ilə təsdiq olunmuş bülleteni qəbul edin.



- Gizli səsvermə kabinəsinə girin, seçiminizi edin, sizin istədiyiniz Prezidentliyə namizədin sıra nömrəsini dairəyə alın və bülleteni elə qatlayın ki, kimə səs verdiyiniz görünməsin.
- Kabinədən çıxdıqdan sonra, ayrıca qoyulmuş masanın üzərindən xüsusi zərf götürün və qatlanmış seçki bülletenini ona yerləşdirin.
- Xüsusi zərfləri seçki qutusuna atın.
- Səs verdikdən sonra seçki məntəqəsini tərk edin.

**MSK-nın qaynar xətti: 251 00 51**